# Tarixin sınaqlarından uğurla çıxan qardaşlıq

## Azərbaycan və Türkiyənin sıx əməkdaşlığı regionda strateji inteqrasiyanın intensivləşməsinə töhfə verir

**"Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" olaraq xarakterizə etdiyi Azərbaycanla Türkiyə arasındakı münasibətlər qardaşlıq, səmimi münasibət, strateji müttəfiqlik əsasında qurulub. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni daha da doğmalaşdırıb, sevincli və kədərli günlərdə birinin digərinin yanında olmasını şərtləndirib".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. Deputat bildirib ki, çoxəsrlik böyük tarixi ənənələrə, dərin köklərə malik olan Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bugünkü mərhələsi isə ölkələrimizin şanlı birlik salnaməsinə parlaq səhifələr əlavə edir.

Martın 5-də Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasiminin keçirilməsi də qardaşlığımızın növbəti nümunəsidir. Dövlət başçıları tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq hər iki ölkə arasındakı əlaqələr bütün sahələr üzrə daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Azərbaycan-Türkiyə əlaqələrinin uğurla inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. İki qardaş ölkənin həmrəyliyi və əməkdaşlığı beynəlxalq aləmdə sülh və əmin-amanlığın, təhlükəsizliyin, əməkdaşlığın tənzimlənməsində, regionda meydana çıxan problemlərin həllində böyük əhəmiyyətə malikdir.

Deputatın sözlərinə görə, İğdır-Naxçıvan qaz boru kəməri layihəsi Naxçıvanın qaz təchizatını şaxələndirməklə yanaşı, həm Naxçıvan, həm də İğdır əhalisinin rifahına xidmət edəcək. Layihənin daha bir özəlliyi ondan ibarətdir ki, bu gün kəmərin maksimum ötürmə gücü 730 milyon kubmetrdirsə, gələcəkdə layihənin genişləndirilməsi imkanları da var. Mərasimdə Prezident İlham Əliyevin dediyi kimi, bir əsrdən çoxdur ki, Naxçıvan Azərbaycanın əsas hissəsindən ayrılıb: "Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən beş ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub. Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir. Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular".

P.Kərimzadə qeyd edib ki, Naxçıvanın o zaman işğal altına düşməməsinin səbəblərindən birinin də muxtar respublikanı Türkiyə ilə birləşdirən "Ümid" körpüsü inşa edildiyi olduğunu bildirib: "Türkiyədən gələn yardımlar Naxçıvanın qorunmasında önəmli rol oynayıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da söylədi ki, Türkiyə və Azərbaycan sülhün, sabitliyin, rifahın tərəfindədir: "Bölgəmizdə ancaq sülh istəyirik, əməkdaşlıq istəyirik, hər birimizin birlikdə inkişaf etməsini istəyirik. Bu məqsədlə indiyədək bir sıra addımlar atdıq, səmimiyyətimizi göstərdik. İnşallah, bundan sonra regional sülh, rifah və əmin-amanlıqla bağlı hər cür layihəni birlikdə həyata keçirməkdə qətiyyətliyik.

Deputat vurğulayıb ki, iki ölkənin dostluq və qardaşlığı tarixin sınaqlarından uğurla çıxıb. Xalqımız 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana qətiyyətli mənəvi və siyasi dəstəyini heç vaxt unutmayacaq. Eləcə də iki il öncə qardaş ölkədə baş vermiş güclü zəlzələ ilə bağlı Azərbaycan öz qardaşlıq dəstəyini əsirgəmədi. Bütövlükdə, Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasındakı möhkəm dostluq, Azərbaycan-Türkiyə qardaşlığı təkcə iki ölkə arasında münasibətlərin inkişafına deyil, türk dünyasında əlaqələrin möhkəmlənməsinə xidmət edir. Hər zaman bir-birinin yanında olan, beynəlxalq müstəvidə də bir-birini birmənalı olaraq dəstəkləyən, sözün əsl mənasında, yeni bir dostluq və qardaşlıq dastanı yazan Azərbaycan və Türkiyənin sıx əməkdaşlığı, birgə təşəbbüsləri regionda strateji inteqrasiyanın daha intensiv xarakter almasına mühüm töhfələr verir. Eyni zamanda dünyanın böyük dövlətlərindən olan Türkiyənin güclənməsi, həm də Azərbaycanın gücünün artması deməkdir. İki ölkə arasında əlaqələrin daha da dərinləşməsi regional inkişafın, eləcə də təhlükəsizliyin təmin olunmasında müstəsna əhəmiyyət kəsb edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 8 mart (№52).- S.11.